

# İMAM HÜSEYNİN (Ə) HƏYAT TƏRZİ

# Hz. İmam Hüseynin (ə) həyat tərzi

*Dilman Şahmərdanlı*

**Tbilisi 2015**



***Kitabın işıq üzü görməsində göstərdiyi maddi dəstəyə görə Almustafa Beynəlxalq Universitetinin Gürcüstandakı nümayəndəliyinə təşəkkür edirik.***

# Yaradılış əbəs deyil

*Bir gün Hüseyn ibn Əli səhabələrinin yanına gələrək dedi: "Ey camaat! Allah-taala bəndələri yalnız Onu tanımaları üçün yaratmışdır. Elə ki Onu tanıdılar, Ona ibadət edəcək, ibadət etdikdə isə, Ona ibadət səbəbilə qeyrisinə pərəstiş etməyə ehtiyacsız olacaqlar".*

* * *

Allah hər bir varlığı müəyyən məqsəd üçün yaradıb. İnsanın da ən üstün yaradılış olaraq, potensiya baxımından, müəyyən bir yaradılış məqsədi var. Həmin potensiya, dinimizdə müəyyən edilmiş proqramlarla gerçəkləşsə, insan məqsədə yetişir. İnsan nə üçün yaradılıb? Bu, barədə fərqli nəzəriyyələr olsa da, ən dəqiq və tam nəzər İslamın nəzəridir. Biz də, Allahın insanın yaradıcısı və onun yaradılış məqsədinin təyinedicisi, həmçinin Qurani-kərimin heç zaman dəyişilməyəcək Allah kəlamı və bəşəriyyətin bütün mənəvi ehtiyaclarına cavab verə biləcək bir kitab olduğuna inandığımıza görə, həmin nəzəri seçmişik.

Quranda Allah insanın yaradılış məqsədinin Ona ibadət və bəndəlik olduğunu bildirir. (Quran.51:56). Hüseyn ibn Əli burada açıqlayır ki, Quranda deyilən "ibadət" sözündə məqsəd Allahı həqiqi şəkildə tanımaq vasitəsidir. İnsan tanımadığına necə həqiqi ibadət edə bilər?! Deməli, ilk mərhələ tanımaqdır. Bu da müvafiq biliklər və həmin biliklərin tələblərinə əməl etməklə gerçəkləşir. Həqiqi ibadətin nəticəsində insanla Allah arasındakı, günah və pis

işlər nəticəsində, yaranmış pərdələr qalxır, insan Rəbbini qəlbən tanımağa başlayır və bundan sonra həqiqi ibadət gerçək şəkildə özünü büruzə verir. İnsan duyur ki, Allahdan başqa pərəstiş edilməyə layiq bir varlıq yoxdur.

## Peyğəmbərin övladları

*Həzrət Əli (ə): "Peyğəmbər sağ olduğu müddətdə Həsən məni "Əbəlhüseyn", Hüseyn də "Əbəlhəsən" deyə çağırır və hər ikisi Peyğəmbərə "ata" deyə müraciət edirdilər...*

* * *

Ərəblərdə hörmət üçün atanı "künyə" ilə - böyük oğulun adı ilə səsləmək adətdir. Əhli-beyt gəncləri Həsən və Hüseyn (Allahın onlara salamı olsun!) babalarına "ata" dedikləri üçün, atalarına hörmət olaraq biri onu "Həsənin atası", digəri "Hüseynin atası" deyə çağırırdılar.

O iki gəncin babalarına "ata" demələrinə səbəb Peyğəmbərimizin müsəlmanlar arasında onları "oğlum, övladım" deyib çağırmağı olmuşdur. Əziz Peyğəmbərimiz bununla öz ümmətinə Allahın sevimliləri olan "Cənnət gənclərinin sərvərləri"nə hörmət olunmasını istəmişdir...

Allah Rəsulunun Hüseynə "oğlum", Hüseynin də ona "ata" deməsi İmam Hüseyni tanımaq üçün kifayət edər.

## Qardaş və bacıya hörmət

*İmam Hüseyn heç vaxt İmam Həsəndən qabağa keçməz, onunla bir yerdə olarkən sözə birinci başlamazdı; Hüseyn ibn Əli hər cümə axşamı Həsən ibn Əlinin qəbrini ziyarət edərdi.*

*Həzrət Zeynəb Hüseyn ibn Əlinin yanına gələrkən İmam Hüseyn ona hörmət edərək ayağa durar, onu öz yerində əyləşdirərdi.*

* * *

İslam əxlaqında böyüyə hörmət etməyin özünəməxsus yeri var. Örnək rəhbər Hüseyn əleyhissalam qardaşına həm onun din rəhbəri, həm də böyük qardaşı olduğuna görə hörmət edirdi. Bu hədisdə böyüyə və böyük qardaşa hörmətin üç təzahürü vurğulanır: qabağa keçməmək, sözə ilk başlamamaq və həftədə bir dəfə qəbrini ziyarət etmək.

İslam etikasında həm də kiçik bacı və qardaşla, xüsusən də bacı ilə yaxşı davranmaq tövsiyə olunur. Qızların qayğıya daha çox ehtiyacları var. Ancaq hz. Hüseynin bacısı Zeynəbə hörmətinin ən mühüm səbəbi onun yüksək imanlı və dərrakəli bir xanım olmağına görə olmuşdur. Hz. Zeynəbin həyat tərzi bunun ən gözəl sübutudur.

## Dəyərlərə hörmət

*Hüseyn ibn Əli eşidəndə ki, Müaviyə oğlu Yezid onu Məkkədə yaxalamaq üçün dəstə göndərib, tez şəhəri tərk etmək qərarına gəldi. Bəziləri ondan xahiş etdilər ki, Məkkədə qalsın. O Allah şəhərində qan töküləcəyini və ora hörmətsizlik olunacağını başa*

*salaraq buyurdu: "Allaha and olsun, mənim üçün bu yerdən (Məkkədən) kənarda öldürülməyim (Məkkədə öldürülməyim nəticəsində) buranın hörmətinin sındırılmasından daha sevimlidir.*

* * *

Bəziləri elə bilirlər ki, məqsədə çatmaq üçün hər bir vasitəyə əl atmaq olar. Necə ki, İbn Zübeyr belə etdi və onun Məkkədə qalmağı nəticəsində Kəbə evi Yezid qoşunu tərəfindən yandırıldı. Ancaq hz. Hüseyn öz müdrik davranışı ilə bizə örnək oldu ki, biz, ümumiyyətlə, sözümüz, yazımız, işimiz, davranışımız və s. ilə müqəddəs dəyərlərə hörmətsizlik olunmasına şərait yaratmayaq... Hətta Qurani-kərimdə buyurulur ki, Allaha söyərlər deyə, müşriklərin bütlərinə söyməyin.

## Allah bəndəsi

*Hüseyn ibn Əli dəyərli bir şəxs idi. O, çox oruc tutan, namaz qılan, həccə gedən, sədəqə verən, ümumiyyətlə, xeyir əməllərlə çox məşğul olan bir şəxs idi.*

* * *

Bəzən deyilir ki, müqəddəs insanların ibadətə ehtiyacı yoxdur. Bəlkə də, zəmanəmiz yaxşı düşünülmədən işlədilən "təmiz ürək" ifadəsi də eyni məntiqsizlikdən yaranıb. Guya ibadət məhz günahların bağışlanması üçündür. Elə isə heç vaxt günaha yol verməmiş ilahi rəhbərlərimiz nə üçün ibadət edirdilər? Bilməliyik ki, ibadət geniş məna daşıyır. Allahın razılığını qazanmaq üçün heç bir kənar məqsəd güdmədən

edilən bütün işlər və əməllər ibadətdir. İbadətin əsas məqsədi Yaradanla qırılmaz rabitə, bu rabitə nəticəsində ruhən oyanma, canlanma, saflaşma, Allahı tanıma və kamilləşmədir.

## Azadların azadlığı

*İmam Hüseyn həmişə həzrət Əlinin adına qul azad edirdi.*

* * *

Bu hədisdə iki dəyərli və xeyirli işdən söz açılır: yaxşı iş görüb, savabını dünyadan köçmüş şəxsə hədiyyə etmək və qul azad etmək.

İnsan dünyadan köçəndən sonra dünyadan göndərilən "hədiyyə"lərdən faydalanır və ruhən inkişaf edir. Buna görə də mömin insanın dünyadan köçmüşlərlə bağlı da vəzifəsi var. Belə işlərdə valideynləri və ümmətin mənəvi atalarını digərlərindən qabağa salmaq lazımdır.

Allah istisnasız olaraq bütün insanları azad yaradıb. İslam dini yarandıqda cəmiyyətin ruhunu sarmış neçə əsrlik quldarlıq adətləri tədricən ləğv olunmağa başladı. Onun birdəfəlik ləğvi cəmiyyəti sarsıda bilərdi. "Batmanla gələn misqalla çıxır"sa, onda "misqal ilə batmanlanmış" adətlər nə ilə çıxa bilərdi?

Hər sadə səbəblə qul azad etmək, onları cəmiyyət ailəsinə qaytarmaq üçün dəstək olmaq Əhli-beytin davamlı şəkildə həyata keçirdiyi işlərdən olub.

## İşləməyən "dişləməz"

*Hüseyn ibn Əli miniyini arxasınca gətirdikləri halda piyada həccə gedərdi.*

* * *

Ən zəhmətli ibadət ən üstün ibadətdir. İnsanın Allaha itaət və sevgisini ifadə etmək üçün əziyyətə qatlaşması Allah tərəfindən yüksək qiymətləndirilir.

Hüseyn ibn Əli Həccə və Allah evi Kəbəni ziyarətə gedərkən, miniklə getmək imkanı olduğu halda, Allaha olan sevgisinə görə əziyyətə qatlaşaraq dəfələrlə Mədinə ilə Məkkə arasındakı təqribən 450 km-lik məsafəni piyada qət edərdi.

Müsəlmanlar da bu gözəl adəti yaşatmışlar. Ancaq təəssüf ki, bu gün bəzi müsəlmanlar Həcc ayini ilə bağlı qarşıya çıxan çətinliklərdə səbirsizlik edirlər.

Hər bir işdə, elə ibadət məsələlərində də ifrata varmaq pislənilir. Buna görə də qeyd edilən məsələ ilə bağlı hər bir şəxs dövri şəraitini, öz fiziki və mənəvi imkanlarını da nəzərə almalı, həddi aşmamalıdır.

## Yaxşılığa dəvət etmək və pislikdən çəkindirmək

*Yezid hakimiyyətə gətirildikdə Hüseyn ibn Əli ona beyət etməkdən boyun qaçırdı. O buna səbəb kimi bu sözləri buyurdu: "Mən yaxşılığa dəvət etmək, pislikdən çəkindirmək, babamın və atamın yolu ilə getmək istəyirəm".*

* * *

Dinimizin əhəmiyyət verdiyi əməllərə dəvət edib, onun qınadığı əməllərdən çəkindirmək müqəddəs dinimizin prinsipial hökmlərindəndir ki, şərtləri daxilində hər bir müsəlmana vacibdir. Bu iki mühüm prinsip tərk edilsə dini həqiqətlər unudulur və günahlar adiləşir. Bu olmasın deyə həmin prinsipi gerçəkləşdirmək hər bir müsəlmana vacibdir.

Yezid kimi dinsiz bir adam İslam ümmətinə rəhbər olursa, cəmiyyətdə dini həqiqətlər unudulacaq, günahlar adiləşəcək. Necə ki, elə belə də oldu. "Hidayət çırağı və nicat gəmisi" — Hüseyn ibn Əli eynilə atası və babası kimi İslam həqiqətlərini dirçəltmək üçün Yezidə qarşı çıxdı və bu əməli ilə digər müsəlmanlara örnək oldu...

## Sevdiklərinizdən bağışlamadıqca

*Hüseyn ibn Əli şəkər (qənd) sədəqə verirdi. Səbəbini soruşduqda buyurdu ki, mən onu xoşlayıram. Allah da buyurub ki, xoşladıqlarınızdan bağışlamadıqca yaxşılığa (yaxşı insan olmaq dərəcəsinə) yetişməzsiniz".*

* * *

Birisini sevdiyini iddia edən şəxs fədakarlıq göstərmədikcə öz eşqində sadiq sayılmır. Əsl aşiq odur ki, sevgilisinin istəkləri müqabilində öz istəklərindən keçməyi bacarsın. Hüseyn ibn Əli də həqiqi bir bəndə olaraq bəndəsini "ürəkdən" sevən, ona lazım olan şeylərin heç birini ondan əsirgəməyən Rəbbini ürəkdən sevir, bütün

varlığı ilə Ona təslim olur və Onun istəklərini öz istəklərindən, Onun razılığını öz razılığından qabağa çəkirdi.

Hər şeyi bizə Allah verib. İmanlı müsəlman üçün Allahın verdiklərindən Onun eşqi xətrinə razı qaldığı yerlərdə xərcləmək çətin deyil. Əslində bizdən heç nə azalmır, vermək, bağışlamaq, sahib olduqlarımızın şükrüdür. Hər kəs şükür etsə, Allah artırar.

Xatırladaq ki, burada "şəkər" dedikdə şəkər çuğunduru və şəkər qamışından hazırlanmış şəkər nəzərdə tutulur. Ancaq hazırda "şəkər" əvəzinə xəstəliklərə, o cümlədən xərçəng xəstəliyinə gətirib çıxaran "kimyəvi şəkər"dən istifadə edilir.

## Çörəyə hörmət

*Bir gün Hüseyn ibn Əli ayaqyoluna gedərkən yerdə bir parça çörək gördü. Götürüb xidmətçisinə verdi ki, qayıdanda ona versin. Həzrət geri qayıtdıqda çörəyi istədi. Xidmətçi dedi ki, yedim. Buyurdu: "Səni azad etdim. Çünki babam buyurub: "Hər kəs bir parça çörək tapsa və onu təmizləyib yesə, həmin çörək qarnına getməmiş Allah onu cəhənnəm əzabından xilas edər." Mən də Allahın əzabından xilas etdiyi şəxsi özümə xidmətçi etmərəm".*

* * *

Desək ki, Allah maddi nemətlər içində insana çörək qədər dəyərli nemət verməyib, yanılmarıq. Xalqımızın adət-ənənələri içində çörəyə hörmət xüsusi yer tutur. Doğrusu,

böyüklü-kiçikli xalqımızın İslamdangəlmə bu adəti gözəl şəkildə qoruyub yaşatması təqdirəlayiq haldır.

Çörəyə hörmət yollarından biri də onun hər cəhətdən keyfiyyətli olmasına çalışmaqdır. Keyfiyyətə riayət edilməməsi nəticəsində bu gün nə qədər çörək israf olur! Həmçinin, insanların sağlamlığına da zərər vurur. Çox yaxşı olardı ki, çörək bişirmək üçün çoxlu sayda vitaminlərinə görə faydalı (kəpəkli) undan, xəmiri qıcqırtmaq üçün də kimyəvi yox, təbii üsulla hazırlanmış xəmir mayasından istifadə ediləydi.

## Azadlıq salamı

*Ənəs ibn Malik deyir: "Hüseyn ibn Əlinin yanında idim. Kiçik bir kəniz ona bir dəstə gül uzadaraq salam verdi. İmam ona buyurdu: Sən Allah yolunda azadsan. Dedim ki, o sadəcə bir gül şaxəsi verdi, buna görə onu azad edirsən? Buyurdu: "Allah bizi belə ədəbləndirib. Allah buyurur: "Sizə salam verildiyi zaman onu daha gözəl alın və ya (cavabını eynilə) qaytarın!" (Nisa, 86). Ondan daha gözəli onu azad etmək idi."*

* * *

İslam ictimai dindir və müsəlmanlar arasında ictimai bağların möhkəmlənməsinə səbəb olacaq bütün şeylərə əhəmiyyət verir. "Salam" Allahın adlarından biri və qarşı tərəfə salamatlıq xeyir-duası olmaqla bərabər həm də bu bağların möhkəmlənməsinə xidmət edir. Buna görə də salam verməklə bağlı 70 savab qeyd olunmuşdur ki, onun 69-u salam verənin, 1-i salamı alanındır. Buradan da görürük ki,

İslam bu gözəl adəti yaşadanlara daha diqqət yetirir. Salam vermək savab olsa da, cavabını qaytarmaq vacibdir, yəni salama cavab verməmək günahdır. Bu hadisə eyni zamanda bizim 6-cı hədisin izahında "qul azad etmək" barədə dediyimiz fikri təsdiqləyir ki, Əhli-beyt üzvləri hər fürsətdə qul və kənizləri azad edirdilər.

## Bəzənmək və bahalı libas

*O, əlli dinara xəz libas alar, yay gəldikdə isə onu hədiyyə verərdi, bu işdə heç bir eyib görməzdi və bu ayəni oxuyardı: "De: Allahın Öz bəndələri üçün yaratdığı zinətləri, halal və pak ruzini haram etmişdir"" (Əraf, 32).*

*Hüseyn ibn Əli saqqalını qara xına ilə boyayardı.*

* * *

Dinimiz insani keyfiyyətlərdən olan təmizlik, gigiyena qaydalarına riayət etmək, səliqə-sahmanlı olmaq və bəzənməyə çox əhəmiyyət verir.

Dinimiz tövsiyə edir ki, Allahın halal nemətlərindən bəhrələnək və həyatda bizə nəsib etdiyi gözəlliklərdən həzz alaq. Dinlərdə ibadətin əhəmiyyətli yeri olsa da, ibadətdə ifrata varmaq, səmərəli əyləncələrdən, halal ləzzətlərdən imtina etmək, fiziki sağlamlığa və zahiri görünüşə əhəmiyyətsiz yanaşmaq qətiyyətlə qınanılır, hətta belə işlərin ibadətə zərər vurduğu da bildirilir. Çünki Allaha təslim olmuş insan Onun hikmətli göstərişlərinin bir qismini qəbul edib, digər qisminə arxa çevirməməlidir. Gənc həyat yoldaşı olanlar

yuxarıda deyilənlərə xüsusi əhəmiyyət verməlidirlər. Qeyd edək ki, bütün bu işlər Allahın razılığı üçün olarsa, ibadətdir.

## Axirətin qasidi

*Bir gün bir fəqir insanlardan kömək istəyirdi. Həzrət (səhabələrinə) buyurdu: "Bilirsinizmi, nə deyir?" Dedilər ki: "Xeyr, ey Allah Rəsulunun övladı!" Buyurdu: "Deyir ki, mən sizin (axirət) elçinizəm. Bir şey versəniz, oraya çatdıraram, verməsəniz, əliboş gedəcəyəm."*

* * *

Hər bir müsəlman digər müsəlmanın taleyi ilə bağlı məsuliyyət daşıyır; bacardıqları qədər bir-birilərinin maddi və mənəvi sıxıntılarını aradan qaldırmalıdırlar. Dinimizdə bir-biri ilə köməkləşən insanlara böyük dünya və axirət mükafatları vəd olunmuşdur. İslamda "xüms" və "zəkat" vacib əməllərinin, həmçinin müstəhəb sədəqələrin bir fəlsəfəsi də cəmiyyətdə fəqirliyin kökünü kəsməkdir. Allah insanları müxtəlif maddi və mənəvi vəziyyətlərlə sınağa çəkir. Əsas məqsəd insani kamillik və axirət səadətinə yetişməkdir. Hüseyn əleyhissalam burada bizə yaxşı işlərin həqiqətini göstərir.

Əsl uzaqgörən şəxs gözlərini axirət üfüqlərinə zilləmiş şəxsdir.

## İki cümlə - iki dünya

*Bir şəxs Hüseyn ibn Əliyə məktub yazdı ki, mənə bir-iki cümlə öyüd-nəsihət yaz. Həzrət o kişiyə yazdı: "Allaha itaətsizlik etməklə nəyi isə əldə etmək istəyən şəxsin ümid bəslədiyi şey tezliklə əlindən çıxar, qorxduğu şey də tezliklə ona yetişər".*

* * *

Əsl şadlıq, sevinc, nemət, rahatlıq, firavanlıq və xoşbəxtlik odur ki, davamlı olsun və sonu yaxşı qurtarsın. İnsan bəzən şeytana və nəfsinə uyaraq Allahın razı qalmadığı və icazə vermədiyi yollar və vasitələrlə nələrə isə sahib olmaq istəyir. Buna görə də onun aləmin idarəolunmasının ziddinə gedərək ələ keçirdiyi xoş günlər uzun sürmür və arzulamadığı bədbəxtliklərə və narahatedici sıxıntılara düşür. Allah hər bir şey üçün ölçü təyin edib və dinimizdə onların nələrdən ibarət olduğunu göstərib. Biz dinimizi öyrənməli və ona uyğun halal müsəlman olmalıyıq.

### Günah etmək istəyirsən?

*Bir kişi Hüseyn ibn Əlinin yanına gələrək dedi: "Günahkaram, günah qarşısında davam gətirə bilmirəm" Hüseyn ibn Əli ona dedi: "Beş işi et, ondan sonra nə qədər istəyirsən günah et:*
*1. Allahın ruzisindən istifadə etmə, nə qədər istəyirsən günah et.*
*2. Allahın hökumətindən kənara çıx, nə qədər istəyirsən günah et.*
*3. Elə yer seç ki, Allah səni görməsin, nə qədər istəyirsən günah et.*
*4. Ölüm mələyi ruhunu almaq üçün yanına gələndə onu özündən uzaqlaşdır, nə qədər istəyirsən günah et. 5. Malik (Cəhənnəm*

*mələyi) səni alova daxil etmək istədikdə getmə, nə qədər istəyirsən günah et.*

* * *

Bu qiymətli hədis xülasə şəkildə onu demək istəyir ki, biz hamılıqla Allahın bəndəsiyik, Onun yaratdığı və idarə etdiyi məkandayıq, həyatımız, ölümümüz, ruzimiz və xeyrimiz, bir sözlə, hər şeyimiz Allahın əlindədir. O, bizə nəyi isə əmr etmiş, bizi nədənsə çəkindirmişsə, demək, səbəbsiz deyil. Çünki Allah sonsuz elm və hikmət sahibidir. Buna görə də Allaha etibar etməli və günah etməməliyik.

## Sanki həmişə axirətmiş...

*Hüseyn ibn Əli Kərbəlaya gedərkən yolda qardaşı Məhəmməd Hənəfiyyəyə yazdı: "Mehriban və bağışlayan Allahın adı ilə. Hüseyn ibn Əlidən Məhəmməd ibn Əliyə və oradakı digər Bəni-haşimə. (Sonra,) Sanki dünya olmamışdır, sanki həmişə axirətdir. Vəssalam".*

* * *

Bu, kamil insan Hüseyn ibn Əlinin dünyanın həqiqəti ilə bağlı buyurduğu çox yüksək və dərin mənalı sözlərdəndir. Buyurur ki, əslində dünyanın və ümumiyyətlə, yaradılış aləminin həqiqətini aşkar şəkildə bəsirət gözü ilə müşahidə edən insan üçün bir dünya var ki, o da həqiqət və həyat aləmi olan "axirət" adlanan batin dünyasıdır. Dünya axirət yanında bir kölgə kimidir. Kölgə işığın qarşısında maneə olduqda yaranır və əslində yoxdur. Allah müvəqqəti olaraq axirətin

qarşısına maneə yaradıb. Həqiqətdən xəbərdar olanlar isə "maneə buludu" arxasında axirət günəşinin aramsız parladığını və işıq saçdığını görür və hər an buludların kənara çəkiləcəyini duyurlar. Bu dünya ilə bağlı həqiqi baxışdır. Ancaq həmin şəxsin Öz elmi və hikmətilə həmin "bulud"ları yaradan Varlığa itaət edərək dünyada Onun istədiyi şəkildə yaşadığını nəzərdən qaçırmaq olmaz.

## Namaz! Namaz!

*Əbu Səmanə Saidi Aşura günü Hüseyn ibn Əlinin yadına saldı ki, günorta namazının vaxtı daxil olub. Həzrət onun sözünü eşidib göyə baxdı və dedi: Namazı yada saldın! Allah səni namaz qılanlardan etsin! Bəli, indi namazın ilk vaxtıdır. Sonra buyurdu: "Onlara (düşmənlərə) deyin ki, bizə namaz qılmaq üçün imkan versinlər."*

* * *

Quranda heç bir ibadətə namaz qədər təkid olunmamışdır. Peyğəmbərimizin həyat tərzi haqqında yazılan kitablarda qeyd olunur ki, o, namaz qılmaqdan heç zaman yorulmaz və doymazmış; namaz vaxtı yetişdikdə sanki heç kimi tanımaz və namaza tələsərmiş. O qədər ayaqüstə dayanıb namaz qılarmış ki, ayaqları şişərmiş; gecələr öz yuxusundan azaldaraq bir neçə dəfə oyanar və namaz qılarmış. O həzrətin ailəsi və onun tərbiyəsindən çıxan Hüseyn əleyhissəlam da, döyüş meydanında belə, namaz

vaxtının çatmasına sevinir və ona namazın ilk vaxtını xatırladana yüksək məzmunlu dua edir.

Hüseyn ibn Əlinin günümüzə mesajı: heç bir şəraitdə, hətta qanlı döyüşdə olsan da namazı unutma! Daim namazı ilk vaxtında qıl! Namaz sənin dinindir. Dinini qoru!

## Din dilin ucunda

*Məşhur şair Fərəzdəq deyir: "Kufədən qayıdarkən Hüseyn ibn Əlini gördüm. Mənə buyurdu: "Ey Əbu Firas nə var, nə yox?" Dedim ki, düzünü deyim? Buyurdu: "Düzünü bilmək istəyirəm". Dedim ki, ürəklər səninlə, qılınclar Bəni-Üməyyə ilədir..." Buyurdu: "Görürəm ki, düz deyirsən. İnsanlar dünyanın qullarıdırlar və din onların dilinin ucundadır. Nə qədər ki, məişət xərcləri dindən çıxır, dinin başına dolanırlar, ancaq çətinliklərlə sınandıqda dindarlar azalır."*

* * *

Adi şəraitdə dindar olmaq və ya dindən dəm vurmaq asandır. Çünki itiriləcək bir şey yoxdur, əksinə dindarlıq bəzən hörmət də gətirir. Ancaq insan sınanmamış onun dindarlığının həqiqi olması bəlli olmur. Adətən, camaatın çoxu belədir — nə qədər ki, din onlardan bir maddi və ya fiziki fədakarlıq tələb etməyib, ağız dolusu "Allaha qurban" olurlar, ancaq dinlə bağlı sınaqlarla üzləşdikdə, meydan boşalır, iddia gölünə həqiqət daşı atılır və səs-küy yatır...

## Cəmiyyəti islah amili

*Buyurmuşdu ki, bir vəzifəni yerinə yetirin, qalan şeylər düzələcək: Yaxşılığa əmr edib, pislikdən çəkindirin. Yadlarına saldı ki, Quran yəhudi alimlərini zülm və fəsad qarşısında dözdüklərinə görə qınayıb. Amma Hüseynin sözləri Bəni-Üməyyə kisələrinin kar etdiyi qulaqlara çatmırdı...*

* * *

Bütün bədbəxtliklərin mənşəyi dəyərlərin unudulması və dəyərsizlərin onların yerini tutmasıdır. Dəyərlərin yaşadılmasının şərti onun uyğun təbliğat və təşviqat vasitəsilə cəmiyyətə çatdırılması, dəyərsiz şeylərin isə ictimai qınaq atəşinə tutularaq səhnədən çıxarılmasıdır. Bunlar olmadıqda milli-mənəvi dəyərlər unudulur, hətta elə bir mərhələ yetişir ki, dəyərlərdən danışanlar qınanılır, lağa qoyulur, fitnə-fəsadla məşğul olan, dəyərsiz şeyləri yayanlarsa təriflənir və alqışlanır. Eynilə dövrümüzdə olduğu kimi. Hüseyn ibn Əli bunun səbəbini və çarəsini göstərib. Ancaq yuxarıdakı düstur şərtləri daxilində olmalıdır.

# Əvvəlcə salam, sonra kəlam

*Bir şəxs Hüseyn ibn Əli ilə görüşdükdə dedi: "Allah afiyət versin, necəsən?" Buyurdu: "Salam hər sözdən əvvəl deyilməlidir, Allah sənə də afiyət versin! Salam vermədikcə heç kimə söz danışmaq icazəsi verməyin".*

* * *

Salam vermək İslamın gözəl şüarıdır. Müsəlman hər bir işini xeyir və salamatlıq niyyətilə başlamalıdır. Qurani-kərimdə salamlaşmaq və onu daha gözəl şəkildə təqdim etməklə bağlı ayələr var.

Peyğəmbərimiz də salamlaşmağa çox əhəmiyyət verərmiş və həmişə salam verməkdə digərlərini qabaqlayarmış.

Salam verərkən əl ilə salamlaşmaq da dinimizdə əhəmiyyət verilmiş etik normalardandır.

Hidayət rəhbəri Hüseyn ibn Əlinin sonuncu cümləsi kobudluq edərək ürək qırmağa haqq vermir. Hər bir hərəkətin, sözün və təlimin uyğun məqamları, deyiliş tərzi var.

## Peyğəmbərin sevimlisi

*Peyğəmbər səcdədə olarkən kiçik Hüseyn namaz qılanların arasından keçərək gəlib onun belinə minərdi. Peyğəmbər bir əli ilə onun belinə, o birini isə dizlərinə qoyaraq, namazını bitirərdi.*

* * *

Əziz Peyğəmbərimizin İmam Hüseyni sevməsi heç kimə gizli deyil. O cənab dəfələrlə bu sevgisini səhabələrin gözü önündə nümayiş etdirmişdir. Bəzən söhbət edərkən sözünü yarımçıq saxlayar, məscidə girmiş kiçik Hüseyni öpüb-əzizləyərdi. Həzrət səhabələrə izah edirdi ki, onun Hüseynə sevgisi Allahın Hüseyni sevməsinə görədir. Çünki Peyğəmbərimizin həm sevgisi və həm də sevməməsi Allaha görədir. Hər hansı bir peyğəmbər, xüsusən, ən üstün peyğəmbər olan bizim Peyğəmbərimiz heç vaxt Allahın

razılığının əksinə hərəkət edə bilməz. Qurani-kərim öyrədir ki, Peyğəmbər sizə nəyi deyirsə, qeyd-şərtsiz onu edin. Görəsən, müsəlmanlar Peyğəmbərimizdən sonra, heç olmasa, o həzrətin xətrinə Hüseynin hörmətini layiqincə saxladılarmı...?

Bu hədis həm də bizə öyrədir ki, hətta ibadətlə məşğul olsaq da uşaqlarla mehriban olaq. Əslində ibadətin fəlsəfəsi də insanın mənəvi baxımdan kamilliyi və insani keyfiyyətlərin çiçəklənməsidir.

## Qəbul olunmuş dua

*Kərbəlada Hüseyn ibn Əli, uşaqlar, qadınlar və səhabələri susuz olduqları vaxt düşmən qoşunundan bir xəbis qışqırıb dedi: "Hüseyn! Fərat çayını görürsən ki, balığın qarnı kimi necə dalğalanır?! And olsun Allaha, ondan içməmiş susuz halda dünyadan gedəcəksən" İmam buyurdu: "Ey Allah, onu susuz öldür!" Hadisəni danışan deyir ki, Allaha and olsun, o kişi həmişə su istəyirdi, suyu içirdi və su ağzından daşıb tökülürdü, ancaq yenə su istəyirdi ki, susuzluqdan öldüm. O, elə bu vəziyyətdə öldü".*

* * *

Allah Öz seçilmiş bəndələrinin duasını qəbul edir. Ancaq onlar Allahın hikmətindən kənar heç nə istəmirlər. Əgər Hüseyn ibn Əli istəsə idi, dua edər, bütün düşmənləri məhv edərdi. Bu isə, Hüseyn hərəkatının məqsədləri ilə uyğun olmazdı. Hüseyn əleyhissəlam istəyir ki, insanlar möcüzə və

kəramət yolu ilə yox, düşünməklə və ayıq şəkildə yaşasınlar, İslamı dirçəltmək və fəsadların qarşısını almaq üçün çalışsınlar.

Həzrətin bu qarğışı istisna hal ilə bağlıdır.

## Təvazökarlıq və dəvəti qəbul etmək

*Bir gün Hüseyn ibn Əli yemək üçün süfrə salmış fəqirlərin yanından keçirdi. Onu süfrəyə dəvət etdilər. O cəld atdan düşərək onlarla əyləşdi və buyurdu: "Allah lovğalananları sevməz". Sonra onlara buyurdu ki, mən sizin dəvətinizi qəbul etdim, siz də mənim dəvətimi qəbul edin və bizim evə gəlin. Onlar razılaşdılar və İmamın evinə getdilər. O həzrət evə daxil olaraq buyurdu ki, evdə nə varsa, qonaqlarımız üçün hazırlayın.*

* * *

Qardaşlıq və bərabərlik dini olan dinimiz kimin tərəfindən olmasından asılı olmayaraq qonaqlıq dəvətini və hədiyyəni qəbul etməyi tövsiyə edir. Bu, insanın mənəvi tərbiyəsində, həmçinin, müsəlmanlar arasındakı qardaşlıq bağlarının sıxlaşması, səfa, səmimiyyət yaranması və qarşılıqlı yardımlaşmasında təsirlidir. Ancaq qonaqlıq dəbdəbəli yox, daha çox sadə şəkildə təşkil olunmalıdır. Yemək-içmək çeşidlərinin çoxalması hər cəhətdən zərərlidir. Bunu təcrübə sübut edir.  Bəziləri düşünürlər ki, qonaqlıq vermək üçün hökmən ət yeməkləri olmalıdır. Məgər bizim ətdən istifadə edilməyən milli yeməklərimiz azdır?!

## Düşmənə də mehriban

*Kufədən Hüseyn ibn Əlinin qarşısını kəsmək üçün göndərilmiş min nəfərlik Hürr qoşunu yandırıcı istidə İmamın qarşısını kəsdi. İmam və tərəfdarları da qılınclarını hazır saxladılar. Görəndə ki, Hürrün qoşunu çox susuzdur, Hüseyn ibn Əli tez onlara və miniklərinə doyunca su verilməsini əmr etdi. Qablara su dolduruldu, düşmən qoşununun və miniklərinin susuzluğu yatırıldı.*

* * *

Belə insani rəftarı yalnız Allahın qəlblərini insanlığa eşq, məhəbbət, qayğı, saygı, şəfqət və mərhəmətlə doldurduğu insanlardan gözləmək olar. Hüseyn əleyhissəlam bu gözəl davranışı ilə bəşəriyyətə insanlıq dərsi vermişdir. Doğrudan da, o bu tarixi hərəkəti ilə göstərdi ki, Allahın "Əhzab" surəsinin 33-cü ayəsində xəbərini verdiyi bütün bəyənilməz xüsusiyyətlərdən uzaqlaşdırdığı, pakladığı  və yer üzündə bəndələr üçün rəhbər  təyin etdiyi şəxsdir. Təəssüf ki:

*Biz dəryanın qırağında susuzluqdan can veririk,*
*Biz ədalət rəhbərinin qətlinə fərman veririk...*

## Borc almaq və borc vermək

*Ondan-bundan pul istəyənlərə deyirdi: "Çox sıxıntıya düşməsəniz, borclu olmasanız, ya da boynunuzda qanbahası olmasa, başqalarına əl açmayın." İmkanlılara da deyirdi ki, sizdən pul istəyənlərə hökmən kömək edin. Onlar sizdən kömək istəməklə*

*öz heysiyyətlərini itirirlər, siz də onları əliboş qaytarmaqla öz heysiyyətinizi itirməyin."*

* * *

Dinimizdə istisna halları və müstəsna şəxsləri çıxmaqla borc istəmək bəyənilmir. Allah Öz bəndəsinin digərinin qarşısıda kiçilməsini istəmir. Təəssüf ki, insan çox vaxt qənaətcil olmamaq və məişət xərclərini düzgün tənzimləməmək səbəbilə borca düşür. Bəzənsə ictimai-siyasi amillər insanı belə vəziyyətə gətirib çatdırır.

Hər halda insan hər şeyi nəzərə almaqla borc istəyən şəxsi əliboş qaytarmamalıdır. Əliboş qaytarmamaq isə həmişə pul vermək mənasında deyil. İmkansız şəxs işlə təmin etmək ona edilən ən böyük köməkdir. Heç cür kömək imkanı olmadıqda ən azından kömək istəyən şəxsi xoş sözlərlə yola salmaq lazımdır.

## Uşaqlara mehriban olmaq

*Bir gün Hüseyn ibn Əli iki-üç nəfər uşağın yanından keçirdi. Onlar çörək yeyirdilər. İmamı gördükdə onu da çörək yeməyə dəvət etdilər. O, uşaqların dəvətini məmnuniyyətlə qəbul etdi və onların çörəyindən yedi, daha sonra onları evə apararaq doyunca yemək verdi, əyinlərinə paltar geyindirdi və buyurdu: "Bunlar məndən daha səxavətlidirlər. Ona görə ki, onlar nələri vardısa, onu da verdilər, ancaq mən sahib olduqlarımdan bəzisini verdim.*

* * *

Dinimiz insani hisslərdən olan uşaqlara məhəbbət və qayğı göstərilməsi məsələsi üzərində çox dayanmışdır. Uşaqlar gələcəyimizdir. Qayğı və məhəbbətlə böyümüş uşaqlar qayğıkeş olacaq, sevgi dolu dünya quracaqlar. Bu gün yer üzündə günahsız qanların axmasına səbəb olanlar uşaqlıqda valideyn nəvazişindən, ailə və cəmiyyət qayğısından məhrum qalmış insanlardır. Belələri hətta günahsız uşaqları öldürməkdən də çəkinmirlər. Dinimiz belə fəsadların qarşıya çıxmaması üçün uşaqlara məhəbbət göstərilməsini tövsiyə edir. Peyğəmbərimiz də həmişə uşaqlara salam verər, onlarla hal-əhval tutardı...

## Haram qarınlar

*Kərbəlada Yezid ordusunun başçısı Sə`d oğlu Ömər qoşunu həzrət Hüseynlə döyüşə hazırlayarkən Hüseyn əleyhissəlam onların qarşısında dayanaraq sakit olub ona qulaq asmalarını istədi. Ancaq onlar sakitləşmədilər. Buyurdu: "Vay olsun sizə! Sizə nə olub ki, sakit olub sözlərimə qulaq asmırsınız. Həqiqətən də mən sizi doğru yola səsləyirəm, kim mənə tabe olsa, doğru yolu tapanlardan olacaq, kim də mənə qarşı çıxsa yolunu azacaq. Hamınız mənə qarşı çıxır və sözlərimi dinləmirsiniz. Ona görə ki, qarınlarınız haramla dolub və qəlbləriniz möhürlənib..."*

* * *

Həzrətin sözündə çox böyük həqiqət var. Demək, haram yeməklər insanın qəlbini tutur, Allahdan uzaqlaşdırır, onun müqəddəs dəyərlərdən uzaqlaşmağına, ilahi rəhbərlərə qarşı

çıxmağına, hətta onları qətlə yetirməyinə səbəb olur, onları həm dünyada və həm də axirətdə bədbəxt edir. Bu dəhşətdən Allaha sığınırıq! Hər birimiz halal qazanclı halal adam olmağa çalışmalıyıq. Halal kişi olmaq hünərdir!

## Qaralmış çiyinlər

*Hüseyn ibn Əli dünyadan getdikdən sonra görmüşdülər ki, çiynində nəyin isə izi qalıb. Oğlu İmam Zeynalabidindən soruşduqda demişdi ki, gecələr çiynində fəqirlərə daşıdığı yemək kisələrinin izidir.*

* * *

Kimsəsizlərə hayan olmaq, kasıblara əl tutmaq, məzlumlara kömək etmək, məhrumların qayğısına qalmaq, haqqı tapdananların haqqını qaytarmaq bütün peyğəmbərlərin, həmçinin əziz Peyğəmbərimizin və onun məsum ailəsinin, o cümlədən də Hüseyn ibn Əlinin həmişəlik həyat şüarı və yolu olmuşdur.

Atası həzrət Əli də dünyadan gedəndə çiyinlərində belə izlər görmüşdülər. Mübarək "Camiə" ziyarətnaməsində Əhli-beyt haqqında deyilir ki, sizin adətiniz ehsan və yaxşılıq etməkdir. Bu yaxşılıqların nəticəsidir ki, Əhli-beyt daim xalqın ürəyində yaşayıb və bu sevgi nəsildən nəsilə günümüzə qədər gəlib çatıb.

İmkansız insanların maddi və mənəvi vəziyyəti ilə şəxsən maraqlanmağın xüsusi mənəvi təsirləri olduğuna görə rəhbərlərimiz heç vaxt kasıblar üçün daşıdıqları yükə

kiminsə kömək etməsinə icazə verməmişlər. Şəxsən kömək etmək də bizə ayrı bir dərsdir.

## Allahı unutmaq səbəbi

*Hüseyn ibn Əli Kərbəlada oğlu İmam Zeynalabidin ilə son görüşündə oğlu ondan soruşur: "Ey ata, bu gün bu münafiqlərlə nə etdiniz?" Ata oğula cavab verir: "Ey oğul, şeytan onlara hakim olmuş və onlara Allahı yad etməyi unutdurmuşdur".*

* * *

"Şəhidlik Günəşi" kitabının müəllifi Əli Səadətpərvərin yazdığı kimi, həzrət bu cavabında insanın bütün sapqınlıqlarının kökünə işarə edir ki, bu da Allahı unutmaqdır. Allahı xatırlamaq, Onun razılığını qazanmaq və qəzəbindən uzaq olmaq istəyi insanı günahlardan saxlayır. Allahdan utanmayansa, bəndədən də utanmır və tədricən bütün pisliklərə bulaşır. Bu acı insanlıq faciəsi əvvəlki ümmətlər içində də olmuş, nə yazıq ki, son ümmətdə də özünün ən dəhşətli formasında təzahür etmişdir. Ruhunda Allahı və müqəddəs dəyərləri "qətlə" yetirən birisi nəinki Allahın insanlara təyin etdiyi ilahi rəhbəri, hətta uf demədən bütün bəşəriyyəti də məhv edər. Tarix belə cəlladları çox görüb və hazırda da görməkdədir...

## Şeytana itaəti özlərinə vacib bilənlər

*Camaat! Allahın Peyğəmbəri buyurmuşdur: "Kim Allahın haramını halal edən, Allahın əhdini sındıran, Peyğəmbərin*

*sünnəsinə müxalif olub Allahın bəndələri arasında günah, fəsad və düşmənlik edən bir hökmdarla üzləşsə, əməli, hərəkəti və ya sözü ilə ona qarşı çıxmasa, Allah onu o hökmdarın qarşılaşacağı əzaba salar. Camaat! Agah olun, bunlar (Bəni–Üməyyə) Allahın itaətindən çıxmış və şeytana itaət etməyi özlərinə vacib bilmişlər. Bunlar fəsadı yaymış, Allahın qanunlarının icra olunmasının qarşısını almışlar. Peyğəmbər ailəsinə məxsus olan şeyi özlərinə götürmüşlər..."*

* * *

Sitəmkarlar birdən-birə sitəmkar olmayıblar. Onlar da digər insanlar kimi dünyaya pak fitrətlə gəliblər. Ancaq öz iradələri ilə şeytana itaət etmiş, daha sonra bu itaəti çoxaldaraq yollarını tamamilə azmışlar...

İnsan daim Allaha itaət yolunda büdrəmələrin təkrarlanmaması üçün diqqətli olmalıdır. Allaha tədrici və kiçik məsələlərdə itaətdə diqqətli olmaq nəhayət öz müsbət bəhrəsini verdiyi kimi, şeytana tədrici və kiçik məsələlərdə itaət də nəhayət öz acı "bəhrə"sini verir. Bəzən bu "bəhrə" insanın varlığını çökdürür və onu əbədi olaraq bədbəxt edir.

## Kərbəlada son çıxış

*Ey Allah bəndələri, Allahdan qorxun və dünyadan uzaq olun. Əgər dünya bir kəs üçün qalacaqdısa, peyğəmbərlər qalmağa daha layiq idilər... Ancaq Allah dünyanı sınaq, əhlini isə ölmək üçün yaratmışdır. Dünyanın hər bir təzəsi köhnəlir, hər bir neməti aradan gedir, sevinci acılığa, qəm-qüssəyə çevrilir. Dünya qalmaq*

*yeri deyil, azuqə yığmaq yeridir. Elə isə azuqə yığın ki, ən faydalı azuqə pəhrizkarlıqdır. Pəhrizkar olun ki, qurtulasınız.*

* * *

Bu qiymətli kəlamı "nəzəri" və "əməli" olaraq iki hissəyə ayırmaq olar: dünyanın mahiyyəti və insanın vəzifəsi. Həzrətin buyurduqları dünyanın mahiyyətini anlamaq və ona görə hərəkət etmək istiqamətində bir dünyaşünaslıq düsturudur. Bizə mömininin dünya ilə münasibətini necə tənzimləməli olduğunu göstərir.

Hüseyn ibn Əliyə oxşamaq istəyənlər onun insanlara şəfqətinə baxsınlar ki, son anına kimi insanlara dəfələrlə öyüd-nəsihət verdi, onları özünə qarşı düşmənlik edərək bədbəxt olmaqdan çəkindirdi. O günahkarlara nifrət etmirdi, onlara ürəyi yanırdı...

## Xoşbəxtlik və bədbəxtlik amili

*Ərəfə günü günortadan sonra Hüseyn ibn Əli öz xeyməsindən çıxdı və ailəsi, övladları və tərəfdarları ilə birlikdə Allah qarşısında dərəcədə təvazökarlıq və kiçikliklə dağın sol tərəfində dayandı, üzünü Kəbə tərəfə çevirdi, ehtiyaclı bir fəqir kimi əllərini üzünün müqabilinə qaldırdı və bu duanı oxudu: "...Məni pəhrizkarlığın vasitəsilə səadətə çatdır, günahın vasitəsilə bədbəxt etmə. Yazında mənim xeyrimi seç və qədərini mənə mübarək et ki, gecikdirdiyinin tezləşməsini, tezləşdirdiyininsə gecikməsini sevməyim"".*

* * *

Dua bəndə ilə Allah arasında əlaqə vasitəsidir; ruhun qidasıdır. Daha yaxşı olar ki, Allahla necə danışmağı və Ondan nə istəməyi Onu ən yaxşı tanıyan və nə istəməyi və necə istəməyi, hətta nəyi, necə, nə vaxt və harada istəməyi dəqiq bilən Əhli-beytdən öyrənək.

Hüseyn əleyhissalam bizə öyrədir ki, həyatın bütün sahələrində Allaha itaət insanı səadətə çatdırır, günahlarsa, insanı bədbəxt edir. Öyrədir ki, insan düzgün yaşayırsa və işlərini Allaha tapşırırsa, Onun yazısına razı olmalıdlır.

## Din-Dünya-Axirət

*Hüseyn ibn Əli hicrətin 60-cı ilində Məkkədə olarkən şəhərdən iyirmi beş km uzaqda yerləşən Ərəfat çölündə öz dolğunluğu və məzmun yüksəkliyi ilə insanı vəcdə gətirən duada Rəbbinə belə müraciət edib: "... Ey Allah! İçimdə ehtiyacsızlıq, qəlbimdə yəqin, əməlimdə ixlas, gözümdə nur, dinimdə bəsirət yarat... Ey Allah, öz halal ruzini mənə çoxalt! Cismimi və dinimi salamat et!... Ey Allah, Səndən o ehtiyacımı istəyirəm ki, onu mənə versən, vermədiyin şeylərin mənə bir ziyanı olmasın, verməsən, verdiklərinin bir xeyiri olmasın".*

* * *

Qurani-kərimdə buyurulur ki, dualarınız olmasa idi, Allah sizə etina etməzdi. Dua bəndənin öz Rəbbi qarşısında kiçikliyini və ehtiyaclı olduğunu etiraf etməsidir. Dua ruhi aramlıqdır.

Hüseyn əleyhissəlam bu duada bizə öyrədir ki, Allahdan həm dünya, həm din və həm də axirət işlərimizi yoluna qoymağını istəməliyik və həyat fəaliyyətimiz də hər üç istiqamətdə olmalıdır. Ancaq Allahdan nə istəyiriksə, onun olması üçün çalışmalıyıq. Yoxsa dua qəbul olmaz.

## O bizi sevir...

Hüseyn ibn Əli Məkkədən Kərbəlaya yola çıxmazdan qabaq öz Rəbbi qarşısında belə kiçiklik izhar etmişdir: *"İlahi, cahilliyimin böyüklüyünə baxmayaraq mənə necə də mehribansan! Əməllərimin pisliyinə baxmayaraq mənə necə də mərhəmətlisən! İlahi, Sən mənə necə də yaxınsan, amma mən Səndən necə də uzağam! Mənə bir belə mehriban olduğun halda məni Səndən ayıran nədir?"*

* * *

İnsan mənəviyyatın hansı pilləsində olmağından asılı olmayaraq böyük Allahın kiçik bəndəsidir və daim bütün varlığı ilə Ona ehtiyaclıdır. Onun böyüklüyü qarşısında hər şey və hər kəs kiçikdir. Heç kəs Onun haqqını layiqincə ödəməyi bacarmaz.

Dualarda üç məsələ nəzərdə saxlanılmalıdır: 1. Həqiqətdən xəbər verir; 2. Yol göstərir; 3. Raz-niyaz vasitəsidir.

Bu duada İmam həm bizə Allahı tanıtdırır və həm də öyrədir ki, Allah bizə çox mehribandır, günahkar olsaq da, bizə mərhəmətlidir, tövbəmizi qəbul edir. O bizə yaxındır, ancaq günahlarımız bizimlə Onun arasında ayrılıq salıb.

Eyni zamanda öyrədir ki, Allahla aramızda olan pərdələr götürülməlidir. Onlar günahlardır.

## Səadətli ölüm

*Hüseyn ibn Əli İraq yolunda "Zi-Husum" adlı bir yerdə ayağa qalxıb öz səhabələrinə aşağıdakı xütbəni buyurdu: "Artıq vəziyyəti özünüz görürsünüz. Zəmanə doğrudan da, dəyişmişdir. Pisliklər meydana çıxmış, yaxşılıqlar və fəzilətlər isə aradan getmişdir. Fəzilətlərdən ancaq su qabının dibində qalan bir-iki damcı su qədər bir şey qalmışdır. Camaat zillət və alçaqlıq içində ömür sürür. Həyat səhnəsi daş-kəsəkli, az otlu bir otlağa, çətin və əziyyətli bir yerə çevrilmişdir. Görmürsünüz ki, daha haqqa əməl olunmur və batilin qarşısı alınmır? Belə bir vaxtda imanlı bir şəxsin (canından keçib) Allaha qovuşmağa haqqı var. Belə bir çirkin və alçaq həyatda mən ölməyi səadət, zalımlarla bir yerdə yaşamağı isə zillət və alçaqlıq hesab edirəm."*

* * *

Həzrət Hüseyn bu kəlamı ilə yaşadığı cəmiyyətin reallığını, İslam aləmini sarmış fəsadları və özünün qarşısında duran ağır vəzifəni əks etdirir. Qeyd edir ki, İslam ümmətini bürümüş günahlar müqabilində susmamalıdır və mümkün olan hər bir yolla, hətta öz canı bahasına olsa da onların qarşısını almalıdır.

Buyurur ki, dini hökmlərə dəvət olunmayan və günahlardan çəkindirilməyən bir cəmiyyətdə susaraq yaşamaq zillət və alçaqlıqdır.

## İlahi Cazibə

*Hüseyn ibn Əlinin duası: "İlahi! Məni rəhmətinlə Özünə doğru istə ki, Sənə yetişə bilim, minnətinlə məni Özünə doğru çək ki, sənə yönəlim".*

* * *

Allah-taala məşhur bir Qüdsi hədisdə buyurur: "Bəndəm, hər şeyi sənin üçün, səni isə Özüm üçün yaratmışam". Yaxud Qurani-kərimdə hz. Musaya xitabən buyurur: "Səni özüm üçün seçdim".

Allahın bizə ehtiyacı yoxdur. O bizi kamilləşmək və Özünə aid xüsusiyyətləri və sifətlərini bizdə cilvələndirmək, bizi Özünün kamillik sifətlərinin daşıyıcıları olmaq, necə deyərlər, ilahiləşmək üçün yaradıb.

Allaha qovuşmaq əslində bütün gözəlliklərə qovuşmaq, bütün ucalıqlara ucalmaqdır. Belə yüksək hədəfə çatmaq üçün cəhd etmək, zəhmət çəkmək lazımdır, ancaq unutmaq lazım deyil ki, Onun tərəfindən cəzbedilmə olmadıqca, ora yetişmək mümkün deyil. Demək, həm bəndəlik yolunda zəhmət çəkmək, həm də ürəkdən istəmək lazımdır.

## Nə ifrat, nə təfrit

*Ümid və qorxu, böyüklük və kiçiklik, fəqirlik və varlılıq arasında. Hüseyn ibn Əli özünün Kərbəlaya doğru yola çıxmazdan qabaq oxuduğu "Ərəfə" duasında Rəbbinə deyir: "İlahi, günah etsəm də, Səndən ümidim kəsilməz. Həmçinin Sənə itaət etsəm də qorxum aradan getməz. Çünki bütün aləmlər məni Sənə doğru*

*qovur və böyüklüyünü bilməyim məni Sənin dərgahına atıb. İlahi, necə ümidsiz olum, halbuki arzum Sənsən! Necə xar olum, halbuki etimadım Sənədir! İlahi, necə izzətli olum bir halda ki, məni kiçiklikdə yerləşdirmisən?! Yaxud necə izzətlənməyim, bir halda ki, məni Özünə nisbət vermisən?! İlahi, necə ehtiyaclılıq izhar etməyim, bir halda ki, məni fəqirlər arasında yerləşdirmisən?! Yaxud necə fəqir sayılım, bir halda ki, bəxşişlərinlə məni ehtiyacsız etmisən?!"*

* * *

Bu dua bizə çox mühüm həqiqətləri başa salır, Allahı və insanı, həmçinin insanın Allaha necə bağlı olmağını tanıtdırır, yaşayış tərzi öyrədir. Öyrədir ki, Allah ilə rabitədə ifrat və təfritə yol vermək olmaz, hər bir işdə, o cümlədən də bəndəlik rabitəsində edidalı qorumaq şərtdir.

## Ünsiyyət şirinliyi

*Ey o kəs ki, Özünlə ünsiyyət şirinliyini dostlarına daddırmısan, beləcə onlar dostluqlarını izhar etmək, əzizlənmək üçün qarşında dayanıblar!*

* * *

İnsan ibadətlərdən həzz almasa, onların əziyyətinə qatlaşmaq onun üçün çətin və yorucu gəlir. Ancaq ibadətin mənəvi şirinliyini duyduqda ondan doymur, yorulmur. Biz bunu Allahın seçilmiş bəndələri olan peyğəmbərlər və imamların, eyni zamanda, onların həqiqi ardıcıllarının həyatında görürük.

Biz ibadətin şirinliyini itirəcək işləri bilsək, onu əldə etmək yollarını da biləcəyik. Günahlar insanın qəlbində ilahi nurların zəifləməsinə və qəlbin qaralmağına səbəb olur. Beləliklə günah ilə qaralmış insanda qaranlığın ziddi olan ibadət işığına qarşı ikrah yaranır. Günü Allaha itaət qəsdilə başlamaq, gün ərzində nəfsə nəzarət etmək, günün sonunda da onunla hesablaşmaq və yol verilmiş nöqsanlara görə tövbə etmək və nöqsanları aradan qaldırmaq qərarına gəlmək insanın əzmini gücləndirir, onun günahlardan uzaqlaşmağına və qəlbində ilahi işıqların yenidən işıldamasına kömək edir. Allah ilə ünsiyyət şirinliyini dadmaq üçün günahları tərk etmək və həyatın bütün sahələrində mərhələ-mərhələ Onun həqiqi bəndəliyinə doğru yüksəlməkdən başqa yol yoxdur.

## Səni kimsə ilə dəyişmərəm

*Ey məbudum! Səni itirən nə qazanıb, Səni qazanan nə itirib?! Səni özgəsi ilə dəyişən, Səndən ayrısına razılaşan doğrudan da ümidsiz olub. Səni tərk edib gedən (digərini seçən) ziyana uğrayıb. Səndən özgəsinə necə ümid bəsləmək olar ki, Sən yaxşılıqlarını kəsməmisən?! Səndən ayrısından necə istəmək olar ki, Sən bəxşiş yolunu, adətini dəyişməmisən?!*

* * *

Allaha yaxın insan bütün xeyirlərə yaxındır. Həyatında Allahı qazanan şəxs bütün xeyirləri qazanıb, çünki O bütün xeyirlərin mənşəyidir, O icazə verməzsə, insana heç bir xeyir

yetişməz. Allahdan uzaq insanların isə, əllərində dünya malı, sərvət, vəzifə və titullar olsa da, əslində heç nəyləri yoxdur. Çünki həm dünya və həm də onda olanlar fənaya uğrayacaq. Əslində isə fənaya uğrayıb, ancaq insan bunu görmür. Demək, insan hər şeydən qabaq Allahın Özünü və Onun razı qaldıqlarını, sevdiklərini istəməli, yalnız Ona və Onun bəyəndiklərinə ümid bəsləməli, yalnız Ondan və Onun razı qaldıqlarından, Onun icazə verdiklərindən istəməlidir.

## Hüseynin övladı

*Hüseyn ibn Əli buyurmuşdur: "Dünyanın sonuna bir gün qalsa da, Allah o günü o qədər uzadacaq ki, mənim nəslimdən olan bir şəxs üzə çıxaraq dünyanı zülm və sitəmlə dolduğu kimi, haqq-ədalətlə doldursun. Mən bunu Allahın Elçisindən eşitdim".*

* * *

Hüseyn ibn Əli İslam dinini xurafatlardan təmizləmək, haqsızlıqla mübarizə aparmaq, sıradan çıxarılmış İslam hökmlərini qüvvəyə mindirmək, ədaləti bərpa etmək, Quranı təhriflərdən qorumaq və yaşatmaq, şirk və nifaqı məhv edərək, tövhidi yaymaq, yaxşılığa dəvət edərək pisliklərdən çəkindirmək və İslam ümmətini islah etmək uğrunda şəhid oldu. Onun doqquzuncu övladı həzrət Mehdi də həmin məqsədləri gerçəkləşdirmək üçün münasib şəraitin yaranmağını gözləyir. Necə ki, Hüseyn əleyhissalam müəyyən məsləhətləri nəzər alaraq təxminən on il Müaviyənin özbaşınalıqlarına qarşı geniş mübarizəni təxirə saldı.

Hüseyn əleyhissalamın hədisinə əsasən, həzrət Mehdinin zühuru qaçılmazdır və hökmən baş verəcək, bununla da şəhid Hüseynin bütün amalları gerçəkləşəcək...

## *Ey Hüseyn ibn Əli...!*

*Ey Hüseyn ibn Əli!* Sən beş nəfərdən birisən. Hansı ki, Allah onları bütün günahlardan arındırıb, öz bəndəliyi yolunda bütün büdrəmələrdən, uzaq edib, bütün kamilliklərlə bəzəyib, bütün yüksəkliklərə ucaldıb, bəşəriyyətin qaranlıqlardan aydınlığa çıxması, insani fitrətə qayıtması, özünə dönməsi üçün bütün insanlar içindən seçib.

*Ey Hüseyn ibn Əli!* Sən o ailədənsən ki, Allah onları sevməyi və onlara itaət etməyi Öz kitabında hər kəsə vacib edib.

*Ey Hüseyn ibn Əli!* Sən İslam Peyğəmbərinin gözünün nuru idin. Səni öpərdi, qoxulayardı, sevib oxşayardı. Sevgi yağan gözlərlə, təbəssüm dolu üzlərlə sənə baxardı, şirin-şirin sözlərlə səninlə danışardı, gözləri yaşla dolardı... süzülərdi nurlu üzündən acı həsrət yaşları...

*Ey Hüseyn ibn Əli!* Sən Məhəmməddən, Məhəmməd də səndən idi. Bunu özü buyurmuşdu, özü duydurmuşdu. Sənin yolun eynilə onun yolu idi, amalın onun amalı idi, onun məqsədini izləyirdin, yolunu gedirdin. Eyni ağacdan idiniz, eyni torpaqda kök atmışdınız, eyni səmaya yönəlmişdiniz, eyni işıqla işıqlanmışdınız... Sən onun

zəhmətlərini puç olmağa qoymadın, ey Hüseyn, izinin silinməyinə, ləpirlərinin itməsinə imkan vermədin. O səni tanıyır və səninlə fəxr edirdi.

*Ey Hüseyn ibn Əli!* Sən hidayət çırağı və nicat gəmisi idin. Bunu da Allahın doğru danışan dili, Rəbbimizin Elçisi buyurdu. O işığa üz tutanlar işıqlandı, yolu gördü, yol aldı. O hidayət mayakını görən tufanlı dəryadan sahili gördü. O gəmiyə minən həyat burulğanlarında sarsılmadı, titrəmədi, əsmədi, yıxılmadı, batmadı, boğulmadı, azadlıq və nicat sahilinə yan aldı. O gəmiyə minən gördü ki, bütün gəmilər tufan ağzında gedir, dalğalara əsir olub, içi boş çəllək kimi yırğalanır... Ancaq sənin gəmin, ey Hüseyn, aram-aram, mətin-mətin, əmin-əmin üzü sevinc, təravət, şadlıq, xoşbəxtlik qəhqəhələrinin sardığı həyat və əbədiyyət sahilinə yaxınlaşırdı...! Nə gözəl gəmin var, sərvərim! Nə gözəl müsafirlərin var, ey həyat gəmisinin rəhbəri!

*Ey Hüseyn ibn Əli!* Bir gün Allaha ən yaxın və ən əziz insan — həzrət Məhəmməd — sənin baban minbərdə söhbət edirdi. Sən girdin məscidə, camaatın içi ilə irəlilədin babana doğru və qəfil dolaşdı ayağın, ilişdi ayağın və üzüqoylu yıxıldın... Ah, düşdün at üstündən yerə və torpağa bələndin. Dözmədi baban, tələsə-tələsə aşağı endi uca cənnətlərdən, sənin səhrana tələsdi, durquzdu səni, aldı ağuşuna, basdı bağrına, öpdü üz-gözündən. Hələ başın bədəndə idi... Onda çox şeyi başa düşməyən birinci sinif İslam şagirdləri gözlərini döyə-döyə baxırdılar üzlərdə təəccüb... Onda

baban: “Bunu mənə Allah əmr etdi.”-dedi... Görəsən, başa düşən oldumu sən kimsən, necə dəyərlisən?! Bəli, baban Allahın səninlə bağlı əmrini tələsə-tələsə yerinə yetirirdi, sənə sevgi əmrini ifadə etməyə gecikmirdi... Ancaq onun ümməti çox gecikdi, ey Hüseyn...!

*Ey Hüseyn ibn Əli!* Allaha, babana, atana, anana, qardaşına-siz Allah ailəsinə düşmən olanlar hər şeyin əvəzini çıxdılar səndən... Yaxşılığa, həqiqətə, düzlüyə, sədaqətə, etibara, gözəlliyə, işığa, aydınlığa, yaşıllığa, canlılığa və həyata nifrət edənlər bütün bunların hamısına sahib olan sənə nifrət etdilər və sənin işığını söndürməyə cəhd etdilər. Heyhat, heyhat! Məgər işığını Allahdan alan gur işıqlı çıraq da sönərmi üfürməklə?! Məgər sən cisim idin ki, cismini öldürməklə öləsən. Xeyr, xeyr, sən həqiqətin özüsən, gözüsən, sən heç zaman ölməyən, sönməyən, köhnəlməyən, dövrlər keçsə də dəyişməyən haqsan, haqqa bağlısan, haqdansan, haqlasan, üzü haqqa doğrusan, özü haqqa sarısan, həqiqət karvanının sarbanısan.

*Ey Hüseyn ibn Əli!* Daim yaşardır Həqiqət! Yaşayırdın buna görə, yaşayırsan buna görə. Düşmənlərinsə yaşamadılar heç vaxt... Həmişəyaşar Həqiqətin yanında olmayanlar yaşadıqlarını güman edən meyitlərdir-nəfəs alan, əl-ayaq tərpədən meyitlər!

*Ey Hüseyn ibn Əli!* Mədinə şahid idi sənin gecələrinə. Şəhərdəki ayıq-sayıqlar, gözlərini axirət üfüqünə zilləmiş

oyaqlar, haqqa doğru yol alanlar sənin parıltını və sənin nurunun səmalara yol açan şöləsinin göylərə yayıldığını görürdülər. Sənin işığın ulduzların gözünü qamaşdırırdı onda... gözlərini tez-tez qırpırdı ulduzlar, özündən gedib axırdı ulduzlar...

*Ey Hüseyn ibn Əli!* Sənin Quran tilavətin nə həzindi, nə şirindi...! Qəlbi oxşayır, ruhu çulğayır, könlü titrədirdi, qəlbi təlatümə gətirirdi. Quran sənin gözünün nuru idi, qəlbinin sevinci idi. Sən heç vaxt Qurandan ayrı düşmədin.

*Ey Hüseyn ibn Əli!* Qəflətdən ayılanlar səninlə ayılır, Rəbbə sarı yüksələnlər sənin əlindən tutub, sənin işığına sığınırdılar, sənin elm və hikmət bulağından içib susuzluqlarını yatırırdılar. Rəbbə sarı gedən yolda könüllər titrədiyi, gözlər səyridiyi, ayaqlar əsdiyi, büdrədiyi bir zamanda sən zərrə qədər qorxu-hürkü keçirmirdin, bu bəndəlik yolunu dəfələrlə getmişdin, gəlmişdin, indi isə gedənlərə yol göstərirdin. Sən olmasaydın, bizim axırımız nə olardı, bu qorxulu vadini, bu vahiməli səhranı necə qət edərdik, ey Hüseyn! Ey Peyğəmbərimizin hidayət işığı!

*Ey Hüseyn ibn Əli!* Duymuşdun ibadətin həzzini, çəkmişdi ərşə yuxunu sənin Allaha, Allahın sənə sevgisi. Eşqində sədaqətli idin. Yuxularını azaltmışdın. Oyanardın gecələr, sübhə kimi dinləyərdin sevgi mesajlarını, dalardın səcdəyə anbaan, dəqiqə-dəqiqə, saat-saat... Açılma, ey səhər, açılma! Doğma, ey dan yeri, doğma, sönməyin, ey ulduzlar

sönməyin...! Hələ ürəyimdə deyilməmiş sözüm var, qəlbimi yandırıb-yaxan közüm var. Ayırmayın məni sevgilimdən. Ah..., ey sevgilim! Ah..., ey sərvərim! Sənin eşq alovun şöləsi vücudumu yandırıb yaxdı, sənə qurban olsun, bu Hüseyn canı! Atam-anam, qardaş, bacım, sənə qurban! Bu uşaqlarım sənə qurban, varım, olan-qalanım da sənə qurban, ey mənim ağam, ey mənim sərvərim! Gündəlik işlərim məni səndən ayrı salır, sənin cilvələrin gözümü qamaşdırır, çək kənara pərdələri, camalından heç zaman ayrı salma məni tamaşandan...!

*Ey Hüseyn ibn Əli!* Ey İmam oğlu, İmam qardaşı, imamlar atası. Babası pak, ata-anası pak, qardaş-bacısı pak, oğlanları pak, nəsli pak! Ey pakların sərvəri! Ey paklanmışların sərvəri! Ey paklanmaq istəyənlərin öndəri, örnəyi! Ey parlaq aylar, ulduzlar oğlu! Ey saçan günəşlər övladı! Ey Məkkə və Mədinə yadigarı! Ey Səfa və Mərvənin göz bəbəyi! Ey Kəbənin iftixarı! Ey öz qanı ilə Kəbəni saxlayan...! Ey yaxşı insan, ey yaxşılığın mənası, ey yaxşılığın özü! Ey yaxşılıq çeşməsi!

*Ey Hüseyn ibn Əli!* Babanı gördün yuxuda, öz şəhərində, öz məscidində, gəldi sənin yanına, basdı səni bağrına... Artıq sənin də saç-saqqalın onunku kimi ağarmışdı... O uşaq Hüseyn hara getdi? Qəlbi qəmlər dəryası olmuş bu yaşlı kişi kimdir? Ancaq sən baban üçün daim kiçik Hüseynsən, kiçik və sevimli Hüseyn olaraq qalacaqsan. O, səni səslədi, səni çağırdı, səni əbədiyyət mənzilinə dəvət etdi, gəl dedi,

hamımız səni gözləyirik. Dur ayağa, Allah ağacı xətərdədir, kökünə balta çalmaq istəyirlər, qurdlar kökünü gəmirir, murdarlar dibini murdarlayır, qov o itləri, Hüseyn! Dur, dur ayağa ey Hüseyn! Qov gözündən mürgünü, qaldır ayağa ümməti, silkələ yuxuda olanları, oyat qəflətə dalanları! Bu ümmətə nə olub ki, Allah dərgahında olanlara ölü deməyə başlayıblar! Nə tez unuduldu ümmətin mehriban atası?! Məhəmməd aranızda olmasa da, onun işığı aranızdadır, onun yolu içinizdədir, onun sevdiyi, seçdiyi Hüseyni sizinlədir... Ey mənim unutqanlarım!

*Ey Hüseyn ibn Əli!* Ey mərd oğlu mərd! Ey comərd oğlu comərd! Ey igid oğlu igid! Ey şir oğlu şir! Ey nər oğlu nər! Sən Kərbəlada Allah düşmənlərini, dəyərləri çeynəyənləri bir-bir, iki-iki, üç-üç qırıb-tökürdün, bu iyrənc ilmələri dartırdın, sökürdün... İyrənc oğlu iyrənc görəndə ki, şir oğlu şirlə bacarmaq mümkün deyil qışqırdı: "Təkbaşına getməyin! Qarşınızdakı ərəblərin qatili Əlinin oğludur!" Onda sənə sarı hər yandan nakişilik nizələri, xəyanət oxları, hətta, sərvərim, əskiklik daş-kəsəyi yağmağa başladı. Nakişilər dünyasında yaşamaq kişilərə ardır! Sən də bu arsızlar diyarından köçdün, getdin... Uca ruhun bir an dayanmadan səmalara pərvaz etdi...

*Ey Hüseyn ibn Əli!* Ey Alim oğlu alim! Arif oğlu arif! Abid oğlu abid! Kimsəyə sual vermədin, sənin kimsəyə ehtiyacın yox idi. Sən elm və hikmət suyunu içmişdin. Bu çeşmə sonsuzluq ümmanına qovuşmuşdu. Daim sənə doğru susuz

suallar yağırdı və sən onları sirab edirdin. Sən bu ümmətin sığınacaq yeri idin. Görən gözlər bunu görməli idi, duyan qəlblər bunu bilməli idi. Ancaq qəlbi xəstələr, xəstəliyi sevənlər, nəfsinə kölə olanlar, quldarlığa, qul olmağa heç vaxt arxa çevirməyənlər, qul olmağı sevənlər, qul olmağa razı olanlar, içləri qap-qara qaralanlar bunu necə başa düşəydi, səni, sənin işığını necə görə biləydilər?! Heyf sənə, ey Hüseyn! Heyf sənə, ey kamil insan! Heyf sənə, ey bəşəriyyət atası! Ey Allahın bir dünya ömürdən sonra yetişdirdiyi ən dadlı, ən şirin, ən ətirli, ən xalis, ən parlaq insan meyvəsi! Allah, Sən insanı yaradanda bu meyvəni yetişdirməyi qarşısına məqsəd qoymuşdun, deyilmi?! Və yetirmişdin! Allah, Sənin zəhmətlərinin əvəzi bu mu olmalı idi?! Ah..., Sən o meyvəni bizim üçün yetişdirmişdin... Heyf sənə, Allah...!

*Ey Hüseyn ibn Əli...!* Ey namaz qılan, oruc tutan, zəkat verən, yaxşılığa dəvət edən, pis işlərdən çəkindirən!

*Ey Hüseyn ibn Əli...! K*əlamın nur, əmrin tərəqqi, vəsiyyətin təqva, işin xeyir, adətin ehsan, səciyyən kərəm…əgər xeyirdən danışılsa, sən onun əvvəlisən, əsasısan, budağısan, mədənisən, əvvəlisən və sonusan.

*Ey Hüseyn ibn Əli...!* Sizdən üz çevirən dindən çıxıb. Sizinlə olan sizə yetişib, haqqınızda səhlənkarlıq edən həlak olub,… sizi sevən səadətə yetişib, sizə düşmən olan məhv olub. Sizi inkar edənin ümidi kəsilər, sizdən ayrılan yolunu

azar, sizdən yapışan arzusuna yetişər, sizə pənah gətirən əmin-amanlıqda olar, sizi təsdiq edən salamat qalar, sizə arxalanan hidayət olunar. Sizə tabe olanın yeri cənnətdir, sizinlə müxalif olana cəhənnəm məkandır.

*Ey Hüseyn ibn Əli!* Hər kəs sizə itaət etsə, Allaha itaət etmiş və hər kəs də sizə qarşı çıxsa, Allaha qarşı çıxmışdır. Hər kəs sizi sevsə həqiqətən, Allahı sevmiş və hər kəs də sizinlə düşmən olsa, Allahla düşmən olmuşdur.

*Ey Hüseyn ibn Əli...!*


السلام على الحسين
وعلى علي بن الحسين
وعلى أولاد الحسين
وعلى أصحاب الحسين